İsmayıl İbrahimov
İcazələr və dövlət orqanları ilə iş üzrə menecer
Azərbaycan, Gürcüstan və Türkiyə Regionu

BP Xəzər Mərkəzi, Port Baku
Neftçilər prospekti, 153
Bakı şəhəri, AZ1010
Azərbaycan

Ümumi +994 12 525 6000
Birbaşa +994 12 404 6306
Faks +994 12 525 6294

ibraim@bp.com
www.bp.com/caspian

İstinad nömrəsi: PRA/İMİ/132

"26" fevral 2021-ci il

"Eksperiment" Elmi İstehsalat Mərkəzinin direktoru

cənab Asif Mustafayevə

**Mövzu: "Ucar-Zərdab-Ağcabədi" avtomobil yolunun yenidənqurulması layihəsinin icrası barədə**

Hörmətli cənab Mustafayev,

Bildiyiniz kimi, "(R32) Ucar-Zərdab-Ağcabədi avtomobil yolunun yenidənqurulması layihəsi" üzrə yenidənqurulması həyata keçirilmiş avtomobil yolu BP şirkəti tərəfindən istismar edilən, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC), Cənubi Qafqaz (CQ), Cənubi Qazqazın genişləndirilməsi (CQG) və Qərb İxrac Boru Kəməri (QİBK) ixrac neft və qaz boru kəmərləri (İBK) ilə kəsişir və sözügedən layihənin İBK-larla kəsişmə hissələrində icrası üçün tərəfimizdən müvafiq texniki şərtlər aidiyyəti qurumlara verilmişdi.

Bununla qeyd edirik ki, sözügedən layihənin icrası məqsədilə "Eksperiment" Elmi İstehsalat Mərkəzi (EİM) tərəfindən təqdim edilmiş işin icra üsulu və planlaşdırma tədbirləri tərəfimizdən verilmiş şərtlərə tam uyğun olmuşdur və layihənin müvəffəqiyyətlə tamamlanmasında öz rolunu oynamışdır.

Xüsusilə qeyd etmək istərdik ki, sözügedən yolun QİBK ilə kəsişməyə dair daha həssas hissəsinə aid layihə sənədləri "Eksperiment" EİM tərəfindən beynəlxalq tələblərə uyğun hazırlanıb, BP şirkəti ilə razılaşdırılaraq, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyində ekspertizadan keçirilmişdir.

Eyni zamanda, Ucar-Zərdab-Ağcabədi avtomobil yolunun İBK-larla kəsişmə hissəsində yenidənqurulması üzrə "Eksperiment" EİM tərəfindən layihənin idarə edilməsi, təchizat, qazıntı (700 $m^3$), əks doldurma və əlaqəli digər işlər BP şirkətinin tələblərinə uyğun yerinə yetirilmiş və uğurla başa çatdırılmışdır. Yuxarıda qeyd olunan İBK-ların istismarçı təşkilatı olaraq, yerinə yetirilmiş işlərə dair iradımız yoxdur.

Hörmətlə,

İsmayıl İbrahimov

İcraçı: Yalçın Hüseynov, tel. – (055) 2250181, 012 5255741